# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# S Ə R Ə N C A M

**Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın icrasından irəli gələn bəzi məsələlərin həll edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda (bundan sonra – Dövlət Proqramı) və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 17 dekabr tarixli 633s nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın 2025–2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planı"nda (bundan sonra -Təfsilatlı Tədbirlər Planı) nəzərdə tutulmuş tədbirlərin icrasını təmin etmək məqsədilə:

1. Təfsilatlı Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsinə ümumi rəhbərlik edilməsi ilə bağlı aşağıdakı tərkibdə İşçi Qrup yaradılsın:

**İşçi Qrupun rəhbəri**

Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini

**İşçi Qrupunun rəhbərinin müavini**

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının rəhbəri

**İşçi Qrupun üzvləri:**

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri

Naxçıvan Muxtar Respublikasının maliyyə naziri

Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri

Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri

Naxçıvan Muxtar Respublikasının təhsil naziri

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri

Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri

Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri

Naxçıvan Muxtar Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri

Naxçıvan Muxtar Respublikası Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri

Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri

Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin direktoru

“Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi” publik hüquqi şəxsin İdarə Heyətinin sədri

“Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” publik hüquqi şəxsin İdarə Heyətinin sədri

“Naxçıvan Muxtar Respublikası Tibb Müəssisələrinin İdarəetmə Birliyi” publik hüquqi şəxsinin icraçı direktoru

“Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin sədri

“Naxçıvan Təlim Mərkəzi” publik hüquqi şəxsin İdarə Heyətinin sədri

2. Təfsilatlı Tədbirlər Planının prioritet istiqamətləri üzrə icraya nəzarət edilməsi üçün aşağıdakı tərkibdə altqruplar yaradılsın:

2.1. əlverişli biznes mühitinin yaradılması, ticarətin, ixracyönlü sənayenin, kənd təsərrüfatı məhsulları istehsalının və emalının inkişafı, ətraf mühitin mühafizəsinin gücləndirilməsi prioritet istiqamətləri üzrə:

**Altqrupun rəhbəri**

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının İqtisadiyyat şöbəsinin müdiri

**Altqrupun üzvləri:**

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin Aparat rəhbəri

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Aparat rəhbəri

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Aparat rəhbəri

Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Aparat rəhbəri

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsinin rəisi

Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi Aparatının İqtisadi sahələrin maliyyəsi şöbəsi

2.2. Turizmin, sosial sektorun, insan kapitalının inkişafı prioritet istiqamətləri üzrə:

**Altqrupun rəhbəri**

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının Humanitar və sosial məsələlər şöbəsinin müdiri

**Altqrupun üzvləri:**

“Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti sədrinin müavini

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin Aparat rəhbəri

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Aparat rəhbəri

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin Aparat rəhbəri

Naxçıvan Muxtar Respublikası Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Aparat rəhbəri

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsinin rəisi

Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini – Sosial iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri

Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi Aparatının İqtisadi sahələrin maliyyəsi şöbəsinin müdiri

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Aparatının Əmək və məşğulluq siyasəti şöbəsinin müdiri

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi Aparatının Ərazi orqanları ilə iş və kadrlar şöbəsinin müdiri

“Naxçıvan Muxtar Respublikası Tibb Müəssisələrinin İdarəetmə Birliyi” publik hüquqi şəxsinin Maliyyə və mühasibatlıq şöbəsinin müdiri

“Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” publik hüquqi şəxsinin Səhiyyə və tibbi statistika şöbəsinin müdiri

Naxçıvan Muxtar Respublikası Turizm Departamenti Aparatının Statistika və sertifikatlaşdırma sektorunun müdiri

2.3. İnstitusional inkişaf prioritet istiqaməti üzrə:

**Altqrupun rəhbəri**

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının İnfrastruktur şöbəsinin müdiri

**Altqrupun üzvləri:**

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin Aparat rəhbəri

Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Aparat rəhbəri

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsinin rəisi

Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini – Sosial iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri

Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi Aparatının İqtisadi sahələrin maliyyəsi şöbəsi

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Aparatının Şəhərsalma və memarlıq şöbəsinin müdiri

"Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsinin Maliyyə və təsərrüfat şöbəsinin müdiri

3. Təfsilatlı Tədbirlər Planında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin əsas icraçısı olduğu tədbirlər üzrə icraçı funksiyasının yerinə yetirilməsi bu Sərəncamın əlavəsində göstərilən dövlət orqanlarına (qurumlarına) həvalə edilsin.

4. İcrası həvalə edilmiş təşkilatların təklifi əsasında tədbirlərin iş planı (komponentlər ətraflı göstərilməklə), icra qrafiki, maliyyələşmə planı və maliyyələşmə mənbələrinə dair təkliflər müvafiq alt qruplar tərəfindən 2025-ci ildə icrası nəzərdə tutulan tədbirlər üzrə 2025-ci il 15 yanvardan gec olmayaraq, növbəti illərdə icrası nəzərdə tutulan tədbirlər üzrə isə əvvəlki ilin 15 dekabr tarixindən gec olmayaraq işçi qrupa təqdim edilsin. İşçi qrupun müvafiq müzakirəsindən sonra yekun variant təsdiq edilmək üçün növbəti 5 gün ərzində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim edilsin. Təsdiq edilmiş iş planı, icra qrafiki və maliyyələşmə məsələləri üzrə işlərin icrasında alt qruplar və işçi qrupu tərəfindən nəzarət təmin edilsin.

5. Bu Sərəncamın 2-ci hissəsi ilə yaradılmış altqruplar Təfsilatlı Tədbirlər Planında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin əsas icraçısı olduğu hər bir tədbirin icrası ilə bağlı görülmüş işlərə dair işçi qrupa aylıq hesabat təqdim etsin və işçi qrup tərəfindən altqrupların hesabatları ümumiləşdirilməklə növbəti ayın 10-dan gec olmayaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim edilsin.

6. Bu Sərəncamın icrası Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının Qanunvericilik və proqramların icrasına nəzarət şöbəsinə həvalə edilsin.

7. Bu Sərəncam qüvvəyə mindiyi gündən Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 24 may 2024-cü il tarixli 44s nömrəli "Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlərin icrasının təşkili məqsədilə İşçi Qrupun yaradılması barədə" Sərəncamı ləğv edilsin.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri "14" yanvar 2025-ci il

№ 2s

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il 14 yanvar tarixli 2s nömrəli Sərəncamına əlavə

**Təfsilatlı Tədbirlər Planında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin əsas icraçı olduğu tədbirlər üzrə icra funksiyasının yerinə yetirilməsi həvalə edilən dövlət orqanları (qurumları)**

| Sıra №-si | İstinad | Təfsilatlı tədbirin adı | Əsas icraçı | Digər icraçılar | İcra müddəti |
|---|---|---|---|---|---|
| 1. | 8.1.1.1.1. | Yekun konsepsiyanın hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi ilə bağlı işlərin davam etdirilməsi (8.1.1 - Azad iqtisadi zonanın yaradılması) | NMR İN | | 2025 |
| 2. | 8.1.6.1.3. | Azərbaycan-Türkiyə dövlət sərhədində Araz çayı üzərində yeni körpünün inşa edilməsinə dair təklifin hazırlanması və aidiyyəti üzrə təqdim olunması ilə bağlı işlərin davam etdirilməsi | NAYDA | NMR RİNN | 2025 |
| 3. | 8.1.6.2.1. | Azərbaycan-Türkiyə dövlət sərhədində Araz çayı üzərində yeni körpünün inşa edilməsi | NAYDA | NMR FHN, NMR RİNN | 2026-2027 |
| 4. | 8.2.2.1.1. | Ticarət Mərkəzi ilə bağlı konsepsiyanın hazırlanması işlərinin davam etdirilməsi (8.2.2 - Naxçıvan şəhərində rüsumsuz ticarət mağazalarına bərabər güzəştlərin tətbiq olunduğu Ticarət Mərkəzinin yaradılması) | NMR İN | NMR MN | 2025 |
| 5. | 8.2.2.1.2 | Mexanizmin hazırlanması və zəruri hüquqi bazanın formalaşdırılması istiqamətində işlərin davam etdirilməsi (8.2.2 - Naxçıvan şəhərində rüsumsuz ticarət mağazalarına bərabər güzəştlərin tətbiq olunduğu Ticarət Mərkəzinin yaradılması) | NMR İN | NMR ƏN, NMR MN | 2025 |
| 6. | 8.2.2.2.2. | Ticarət Mərkəzinin inşa edilməsi | NMR İN | NMR FHN, NMR DŞAK | 2027 |
| 7. | 8.2.4.3. | Müvafiq dəstək mexanizminin tətbiqi ilə ixracın həcminin davamlı artırılması | NMR İN | | 2027 |
| 8. | 8.3.1.3.1. | Sənaye parkında məhsul istehsalının təmin edilməsi (8.3.1 - Naxçıvan Muxtar Respublikasında sənaye parkının yaradılması) | NMR İN | | 2027 |
| 9. | 8.3.1.3.2. | Sənaye parkında iş yerlərinin açılması (8.3.1 - Naxçıvan Muxtar Respublikasında sənaye parkının yaradılması) | NMR İN | | 2027 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 10. | 8.3.2.1.1. | Yeni rezidentlərin cəlb olunması ilə bağlı işlərin davam etdirilməsi (8.3.2 – Şərur Sənaye Məhəlləsinin fəaliyyətə başlamasının təmin edilməsi) | NMR İN | | 2025-2027 |
| 11. | 8.3.2.2.1. | Cəlb olunmuş rezidentlərin istehsal fəaliyyətinə başlaması istiqamətində işlərin davam etdirilməsi (8.3.2 – Şərur Sənaye Məhəlləsinin fəaliyyətə başlamasının təmin edilməsi) | NMR İN | | 2025-2027 |
| 12. | 8.3.2.2.2. | Sənaye Məhəlləsində yeni istehsal sahələrinin yaradılması (8.3.2 – Şərur Sənaye Məhəlləsinin fəaliyyətə başlamasının təmin edilməsi) | NMR İN | | 2026-2027 |
| 13. | 8.3.2.3.1. | Sənaye Məhəlləsində məhsul istehsalının təmin edilməsi (8.3.2 – Şərur Sənaye Məhəlləsinin fəaliyyətə başlamasının təmin edilməsi) | NMR İN | | 2027 |
| 14. | 8.3.2.3.2. | Sənaye Məhəlləsində iş yerlərinin açılması (8.3.2 – Şərur Sənaye Məhəlləsinin fəaliyyətə başlamasının təmin edilməsi) | NMR İN | | 2027 |
| 15. | 8.3.3.3.1. | Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsulların ixracının artırılması | NMR İN, NMR KTN | | 2027 |
| 16. | 8.3.3.3.2. | Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsulların ixrac olunduğu ölkələrin sayının artırılması | NMR İN | | 2027 |
| 17. | 8.3.5.2.1. | “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən müəssisələr üçün Anbar və Sərgi-Satış Mərkəzinin yaradılması istiqamətində işlərin davam etdirilməsi | NMR İN | | 2025-2026 |
| 18. | 8.4.1.2.5. | Naxçıvan Muxtar Respublikasının aidiyyəti müəssisələrinin laboratoriya sisteminin yaradılması | NMR QTA | NMR KTN | 2025-2027 |
| 19. | 8.4.1.3. | Bitkiçiliyin, o cümlədən bağçılıq, üzümçülük və bostançılığın inkişaf etdirilməsi ilə kənd təsərrüfatında məhsul istehsalının artırılması | NMR KTN | NMR İN | 2027 |
| 20. | 8.4.2.3. | Heyvandarlığın və arıçılığın inkişaf etdirilməsi ilə kənd təsərrüfatında məhsul istehsalının artırılması | NMR KTN | NMR İN | 2027 |
| 21. | 8.4.3.2.1. | “Orqanik Naxçıvan” publik hüquqi şəxsin fəaliyyətinin təkmilləşdirilməsi və aqroklasterinin yaradılması istiqamətində işlərin davam etdirilməsi | NMR KTN | NMR İN, YİH | 2025-2027 |
| 22. | 8.4.3.3. | Kənd təsərrüfatında spesifik və orqanik məhsul istehsalının artırılması | NMR KTN | NMR İN, NMR QTA, YİH | 2027 |
| 23. | 8.4.4.2.5. | Şüşə qablar istehsalı zavodunun yaradılması ilə bağlı biznes layihəsinin hazırlanması və təşviqat işlərinin aparılması | NMR İN | | 2025-2026 |
| 24. | 8.4.5.3.1. | Taxıl və hədəflənən meyvə istehsalında məhsuldarlığın artırılması | NMR KTN | NMR İN, YİH | 2027 |
| 25. | 8.4.6.3 | Məsləhət-informasiya xidməti göstərilmiş fermerlərin sayının artırılması ilə fermerlərin müvafiq sahələrdə bilik və bacarıqlarının inkişafı | NMR KTN | YİH | 2027 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 26. | 8.4.7.2.1. | Aqroparkın yaradılması ilə bağlı işlərin həyata keçirilməsi | NMR İN | NMR KTN, YİH | 2026 |
| 27. | 8.4.7.3. | Aqroparkların yaradılması ilə kənd təsərrüfatı sahəsində məhsul istehsalının və məşğulluğun artırılması | NMR İN | NMR KTN, YİH | 2027 |
| 28. | 8.5.1.2.1. | İnkişaf Planı əsasında müəyyən edilmiş tədbirlər planının infrastruktura aid hissələrinin icrasının davam etdirilməsi (8.5.1 – Turizm infrastrukturunun yaxşılaşdırılması) | NMR TD | YİH | 2025-2027 |
| 29. | 8.5.2.1.1. | Batabat gölünün yaxınlığında turistik mərkəzin layihələndirilməsi ilə bağlı işlərin davam etdirilməsi | NMR TD | NMR FHN, ŞRİH | 2025 |
| 30. | 8.5.2.1.4. | Ordubad Tematik Parkının yaradılmasının layihələndirilməsi ilə bağlı işlərin davam etdirilməsi | NMR TD | NMR FHN, NMR DŞAK, ORİH | 2026 |
| 31. | 8.5.2.1.6 | “Əshabi-Kəhf Ziyarətgahı” Dini Mədəni Abidə Kompleksinin ərazisində ziyarətçilər üçün qonaq evinin layihələndirilməsi | NMR TD | NMR FHN, NMR DQİDA, CRİH | 2025 |
| 32. | 8.5.2.2.2 | Batabat Astrofizika Rəsədxanası üçün tematik turistik mərkəzin tikintisi (turizmin dəyər zəncirinə qatılması) ilə bağlı işlərin davam etdirilməsi | NMR TD | NMR FHN, ŞRİH | 2025-2026 |
| 33. | 8.5.2.2.6. | Batabat gölünün yaxınlığında turistik mərkəzin inşa edilməsi | NMR TD | NMR FHN, ŞRİH | 2026 |
| 34. | 8.5.2.2.7. | “Əshabi-Kəhf Ziyarətgahı” Dini Mədəni Abidə Kompleksinin ərazisində ziyarətçilər üçün qonaq evinin inşa edilməsi | NMR TD | NMR FHN, NMR DQİDA, CRİH | 2026-2027 |
| 35. | 8.5.2.2.8. | Ordubad Tematik Parkının inşa edilməsi | NMR TD | NMR DŞAK, ORİH | 2027 |
| 36. | 8.5.2.3. | Müxtəlif turizm növlərinin inkişaf etdirilməsi ilə xarici və yerli turistlərin sayının artırılması | NMR TD | | 2027 |
| 37. | 8.7.1.2.2. | Naxçıvan Muxtar Respublikasının telekommunikasiya şəbəkəsində VIMS texnologiyasının tətbiqi, yeni IP MPLS şəbəkəsinin qurulması və GPON texnologiyasının tətbiq edilməsi istiqamətində işlərin davam etdirilməsi | NMR RİNN | | 2025-2026 |
| 38. | 8.7.1.2.3. | Naxçıvan Muxtar Respublikasında Data Mərkəzin inşa edilməsi və müvafiq texniki infrastrukturun yaradılmasının davam etdirilməsi | NMR RİNN | NMR DŞAK | 2025-2026 |
| 39. | 8.7.1.3. | Keyfiyyətli telekommunikasiya və poçt xidmətləri ilə təminat səviyyəsinin artırılması | NMR RİNN | | 2027 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 40. | 8.7.2.3. | Mobil rabitə xidmətinin keyfiyyətinin yüksəldilməsi | NMR RİNN | | 2025-2027 |
| 41. | 8.7.3.2. | Müvafiq şəbəkələrdən istifadənin təşviqi və genişləndirilməsi (8.7.3 – İnternet xidmətlərinin keyfiyyətinin yüksəldilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi) | NMR RİNN | NMR İN | 2026-2027 |
| 42. | 8.7.4.2. | Xidmətlərin keyfiyyətinin yüksəldilməsi, dayanıqlığın və xidmətlərin fasiləsiz göstərilməsinin təmin edilməsi ilə müştəri məmnunluğuna nail olunması (8.7.4 – Fiber-optik magistral şəbəkənin yenilənməsi) | NMR RİNN | | 2026-2027 |
| 43. | 8.7.5.1.1. | Tranzit potensialının gücləndirilməsi ilə əlaqədar magistral avtomobil yollarının yenidən qurulması üçün layihələndirmə işlərinin davam etdirilməsi | NAYDA | NMR RİNN | 2025 |
| 44. | 8.7.5.1.4. | Naxçıvan Muxtar Respublikasının şəhər və kəndlərinin daxili avtomobil yollarının yenidən qurulmasının və abadlaşdırılmasının layihələndirilməsi | NAYDA | NMR RİNN, YİH | 2025 |
| 45. | 8.7.5.2.1. | Yerli əhəmiyyətli avtomobil yollarının inşa edilməsi ilə bağlı işlərin davam etdirilməsi | NAYDA | NMR RİNN,YİH | 2025-2027 |
| 46. | 8.7.5.2.2. | Tranzit potensialının gücləndirilməsi ilə əlaqədar magistral avtomobil yollarının yenidən qurulması | NAYDA | NMR RİNN | 2025-2027 |
| 47. | 8.7.5.2.3. | Naxçıvan Muxtar Respublikasının ictimai nəqliyyat parkının və infrastrukturunun yenilənməsi | NŞİH | NMR RİNN | 2025 |
| 48. | 8.7.5.2.4. | Naxçıvan Muxtar Respublikasının şəhər və kəndlərinin daxili avtomobil yollarının yenidən qurulması və abadlaşdırılması | NAYDA | NMR RİNN, YİH | 2025-2027 |
| 49. | 8.7.5.2.5. | Avtomobil yollarının təmiri və saxlanılması işlərinin icrası üçün maşın-mexanizm parkının yenilənməsi | NAYDA | NMR MN | 2025 |
| 50. | 8.7.5.3.1. | Avtomobil yollarının keyfiyyətinin artırılması | NAYDA | NMR RİNN | 2025-2027 |
| 51. | 8.8.2.2.3. | Uşaq bağçalarının maddi-texniki bazasının yaxşılaşdırılması | NMR TN | NMR MN | 2026 |
| 52. | 8.8.2.2.4. | Təhsil müəssisələrinin daxilində olan istilik sistemlərinin (qazanxanaların) binadan kənara çıxarılması ilə bağlı işlərin davam etdirilməsi | NMR TN | NMR FHN, NMR DŞAK, YİH | 2025 |
| 53. | 8.8.2.3.1. | Uşaqların məktəbəqədər təhsil şəraitinin yaxşılaşdırılması (8.8.2.3 - Aztəminatlı və xüsusi himayəyə ehtiyacı olan uşaqların təhsil imkanlarının genişləndirilməsi) | NMR TN | NMR ƏƏSMN, YİH | 2027 |
| 54. | 8.8.2.3.2. | Şagirdlərin təhsil şəraitinin yaxşılaşdırılması (8.8.2.3 - Aztəminatlı və xüsusi himayəyə ehtiyacı olan uşaqların təhsil imkanlarının genişləndirilməsi) | NMR TN | NMR ƏƏSMN, YİH | 2027 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 55. | 8.8.3.3. | Müvafiq şəxslərin sosial xidmətlərlə əhatəliliyinin artırılması | NMR ƏƏSMN | YİH | 2025-2027 |
| 56. | 8.8.4.1.1. | Naxçıvan şəhərində mövcud stadionun köçürülməsi və həmin ərazidə asudə vaxtın təşkili üçün istirahət kompleksinin inşa edilməsi ilə bağlı layihələndirmə işlərinin davam etdirilməsi | NMR GİN | NMR FHN, NMR DŞAK, NŞİH | 2025 |
| 57. | 8.8.4.1.2. | Naxçıvan şəhərində idman qurğularının quraşdırılması üçün uyğun olan yerlərin seçilməsi, layihələndirilməsi və quraşdırılacaq idman qurğularının ilkin qiymətləndirilməsinin aparılması istiqamətində işlərin davam etdirilməsi | NMR GİN | NŞİH | 2025 |
| 58. | 8.8.4.2.1. | Naxçıvan şəhərində böyük yaşayış komplekslərinin həyətində, parklarda və əhalinin sıx yaşadığı məhəllələrdə insanların idmanla məşğul olması, asudə vaxtın səmərəli təşkili məqsədilə sadə tipli açıq hava idman qurğularının qurulması istiqamətində işlərin davam etdirilməsi | NMR GİN | NMR FHN, NŞİH | 2025 |
| 59. | 8.8.4.2.2. | Naxçıvan şəhərində 20 min azarkeş tutumu olan stadionun inşa edilməsi | NMR GİN | NMR FHN, NMR DŞAK, NŞİH | 2025-2027 |
| 60. | 8.8.4.2.3. | Naxçıvan şəhərindəki Heydər Əliyev Mədəniyyət və İstirahət Parkının yenidən qurulması | NŞİH | NMR FHN, NMR DŞAK | 2027 |
| 61. | 8.8.4.3. | Gənclərin asudə vaxtının səmərəli təşkili | NMR GİN | | 2027 |
| 62. | 8.9.1.3. | Əmək bazarının tələblərinə uyğun peşə təhsilli gənclərin sayının artırılması | NMR TN | NMR ƏƏSMN | 2027 |
| 63. | 8.9.7.2.2. | Proqramların təşkili və təlimlərin keçirilməsi, eyni zamanda peşə qabiliyyətlərinin yüksəldilməsi üçün Naxçıvan Təlim Mərkəzinin yaradılması istiqamətində işlərin davam etdirilməsi | NTM | NMR GİN, NMR ƏƏSMN | 2025-2027 |
| 64. | 8.10.2.1.7. | Naxçıvan Dövlət Filarmoniyası üçün yeni binanın inşa edilməsi ilə bağlı layihə sənədlərinin hazırlanması işlərinin davam etdirilməsi | NMR MdN | NMR FHN, NMR DŞAK, NŞİH | 2025 |
| 65. | 8.10.2.1.8 | Naxçıvan Dövlət Kukla Teatrı üçün yeni binanın inşa edilməsi ilə bağlı layihə sənədlərinin hazırlanması işlərinin davam etdirilməsi | NMR MdN | NMR FHN, NMR DŞAK, NŞİH | 2025 |
| 66. | 8.10.2.1.10. | Ordubad Dövlət Tarix-Mədəniyyət Qoruğunun ərazisindəki abidələrin bərpa-konservasiya layihələrinin hazırlanması | NMR MdN | NMR FHN, NMR DŞAK, ORİH | 2025-2026 |
| 67. | 8.10.2.2.1. | “Naxçıvanın 7 incisi” Tarix-Memarlıq Turizm Kompleksinin yaradılması, müvafiq abidələrin bərpası və ərazinin abadlaşdırılması istiqamətində işlərin davam etdirilməsi | NMR MdN, NŞİH | NMR FHN, NMR DŞAK | 2026 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 68. | 8.10.2.2.2. | Naxçıvan şəhərində muzey mərkəzinin inşa edilməsi istiqamətində işlərin davam etdirilməsi | NMR MdN | NMR FHN, NMR DŞAK, NŞİH | 2026-2027 |
| 69. | 8.10.2.2.8. | Ordubad Dövlət Tarix-Mədəniyyət Qoruğunun ərazisindəki abidələrin bərpa-konservasiya layihələrinin həyata keçirilməsi | NMR MdN | NMR FHN, NMR DŞAK, ORİH | 2025-2027 |
| 70. | 8.10.2.2.9. | Naxçıvan Dövlət Filarmoniyası üçün yeni binanın inşa edilməsi | NMR MdN | NMR FHN, NMR DŞAK, NŞİH | 2025-2026 |
| 71. | 8.10.2.2.10. | Naxçıvan Dövlət Kukla Teatrı üçün yeni binanın inşa edilməsi | NMR MdN | NMR FHN, NMR DŞAK, NŞİH | 2025-2026 |
| 72. | 8.10.2.2.11. | Medianın inkişafının təmin edilməsi məqsədilə Naxçıvan şəhərində Media mərkəzinin yaradılması | NTV QSC | NMR MdN, NMR FHN, NMR DŞAK, NŞİH | 2026 |
| 73. | 8.10.2.3. | Mədəniyyət müəssisələri tərəfindən əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi | NMR MdN | | 2026-2027 |
| 74. | 8.10.4.2.5. | Regional ailə mərkəzlərinin yaradılması istiqamətində işlərin davam etdirilməsi | NMR AQUPDK | NMR FHN, NMR DŞAK, YİH | 2025-2026 |
| 75. | 8.10.4.2.6. | Əmək münasibətləri, məşğulluq, sosial müdafiə sahələrinə aid dövlət xidmətlərinin inkişafı istiqamətində işlərin görülməsi | NMR ƏƏSMN | NMR RİNN | 2025-2027 |
| 76. | 8.10.4.3.1. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən tətbiq olunan elektron xidmətlərin Naxçıvan Muxtar Respublikasında tətbiqi | NMR ƏƏSMN | NMR RİNN | 2027 |
| 77. | 8.10.4.3.2. | Naxçıvan Muxtar Respublikası üzrə təyinatı avtomatlaşdırılmış qaydada həyata keçirilməsi mümkün olan bütün sosial ödənişlərin elektron (proaktiv) təyin edilməsinin təmin olunması | NMR ƏƏSMN | NMR RİNN | 2027 |
| 78. | 8.10.4.3.3. | Dövlət sosial xidmət müəssisələrinin (o cümlədən yeni yaradılan müəssisələrin) infrastrukturunun müasir beynəlxalq təcrübəyə uyğunlaşdırılmasının təmin edilməsi | NMR ƏƏSMN | | 2027 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 79. | 8.10.5.1.2. | Naxçıvan şəhərində yeni ailə sağlamlıq mərkəzlərinin layihələndirilməsi işlərinin davam etdirilməsi | NMR NK | NMR FHN, NMR DŞAK, NŞİH | 2025 |
| 80. | 8.10.5.1.5. | Fizioterapiya və Reabilitasiya Mərkəzinin yaradılması, formalaşdırılması, maddi-texniki bazanın gücləndirilməsi ilə bağlı layihə-smeta sənədlərinin hazırlanması | NMR NK | NMR FHN, NMR DŞAK, NŞİH | 2025 |
| 81. | 8.10.5.1.6. | Naxçıvan Muxtar Respublikasının Uşaq xəstəxanası üçün yeni binanın inşa edilməsi ilə bağlı layihə-smeta sənədlərinin hazırlanması | NMR TMİB | NMR İTSDA, NMR FHN, NMR DŞAK, NŞİH | 2025 |
| 82. | 8.10.5.1.7. | Naxçıvan Muxtar Respublikasının Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi üçün yeni binanın inşa edilməsi ilə bağlı layihə-smeta sənədlərinin hazırlanması | NMR NK | NMR FHN, NMR DŞAK, NŞİH | 2025 |
| 83. | 8.10.5.2.2. | Naxçıvan şəhərində yeni ailə sağlamlıq mərkəzlərinin inşa edilməsi istiqamətində işlərin davam etdirilməsi | NMR NK | NMR FHN, NMR DŞAK, NŞİH | 2026-2027 |
| 84. | 8.10.5.2.4. | Seminar, treninq və simulyasiya mərkəzinin yaradılması istiqamətində işlərin davam etdirilməsi | NMR NK | NMR FHN, NMR DŞAK NŞİH | 2026-2027 |
| 85. | 8.10.5.2.5. | Naxçıvan Muxtar Respublikasının Ağciyər Xəstəlikləri Dispanseri üçün yeni binanın inşa edilməsi istiqamətində işlərin davam etdirilməsi | NMR TMİB | NMR FHN, NMR İTSDA, NMR DŞAK NŞİH | 2026-2027 |
| 86. | 8.10.5.2.6. | Təcili Tibbi Yardım Xidmətinin binasının inşa edilməsi | NMR NK | NMR FHN, NMR DŞAK, NŞİH | 2025 |
| 87. | 8.10.5.2.7. | Naxçıvan Muxtar Respublikasının Uşaq xəstəxanası üçün yeni binanın inşa edilməsi və maddi-texniki bazanın formalaşdırılması | NMR TMİB | NMR FHN, NMR İTSDA, NMR DŞAK, NŞİH | 2026-2027 |
| 88. | 8.10.5.2.8. | Naxçıvan Muxtar Respublikasının Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi üçün yeni binanın inşa edilməsi | NMR NK | NMR FHN, NMR DŞAK, NŞİH | 2026-2027 |
| 89. | 8.10.5.2.9. | Fizioterapiya və reabilitasiya mərkəzinin yaradılması, formalaşdırılması və maddi-texniki bazanın gücləndirilməsi ilə bağlı tədbirlər görülməsi | NMR NK | NMR DŞAK, NŞİH | 2026-2027 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 90. | 8.10.5.2.10. | Naxçıvan Muxtar Respublikasında Onkoloji xidmətin yenidən qurulması | NMR NK | NMR DŞAK, NŞİH | 2026-2027 |
| 91. | 8.10.5.3. | Tibb müəssisələrində xidmətlərin keyfiyyət səviyyəsinin yüksəlməsi | NMR NK | NMR İTSDA, NMR TMİB | 2027 |
| 92. | 8.10.8.2.1. | Deqradasiyaya uğramış torpaqların bərpasına, növbəli əkinə, dincə və qara heriyə qoyulmuş torpaqlara görə dövlət dəstəyinin göstərilməsi istiqamətində işlərin davam etdirilməsi | YİH | NMR KTN, NMR MN | 2025-2027 |
| 93. | 8.10.11.2.2. | Dövlət mülkiyyətində olan və zərərlə işləyən istehsal və xidmət sahələrinin qiymətləndirilərək özəlləşdirməyə açılması ilə bağlı işlərin davam etdirilməsi | NMR İN | | 2025-2027 |
| 94. | 8.10.11.2.7. | Dövlət mülkiyyətində olan daşınmaz əmlakın icarəyə verilməsinin sürətləndirilməsi, yeni sahələrin icarəyə cəlb edilməsi və dövlət büdcəsinə daxilolmaların artırılması məqsədilə müvafiq tədbirlərin görülməsi | NMR İN | NMR MN | 2025-2027 |
| 95. | 8.10.11.3.4. | Dövlət və bələdiyyə mülkiyyətində olan torpaqların səmərəli və rəqabətli şərtlər əsasında icarəyə verilməsi | NMR İN | YİH | 2027 |
| 96. | 8.11.1.1.2. | Qara, əlvan, nəcib metalların axtarışı və qiymətləndirilməsi ilə bağlı işlərin davam etdirilməsi | NMR ETSN | NMR MN | 2025 |
| 97. | 8.11.1.1.4. | Filiz və qeyri-filiz ehtiyatlarının qiymətləndirilməsi üçün beynəlxalq qiymətləndiricilərin dəvət edilməsi və investisiya üçün açılması istiqamətində işlərin davam etdirilməsi | NMR ETSN | NMR İN, NMR MN | 2025 |
| 98. | 8.11.1.2.1. | Ekzogen geoloji proseslərin tədqiqi və monitorinqi ilə bağlı işlərin davam etdirilməsi | NMR ETSN | | 2025-2026 |
| 99. | 8.11.1.3. | Naxçıvan Muxtar Respublikasının təbii resurslarından səmərəli istifadənin təmin edilməsi | NMR ETSN | NMR İN, YİH | 2027 |
| 100. | 8.11.2.1.1. | Meşəsalma və meşəbərpa tədbirlərinin həyata keçirilməsi ilə bağlı ilkin qiymətləndirmələrin davam etdirilməsi | NMR ETSN | YİH | 2025-2027 |
| 101. | 8.11.2.2.1. | Meşə fondunun açıq sahələrində (meşə ilə örtülü olmayan) yeni meşəliklərin salınması və mövcud meşə sahələrinin (seyrək meşəliklər) bərpa edilməsi istiqamətində işlərin davam etdirilməsi | NMR ETSN | YİH | 2025-2027 |
| 102. | 8.11.2.3.1. | Meşə fondunun açıq sahələrində aparılmış meşəsalma və meşəbərpa tədbirləri hesabına meşə ilə örtülü sahələrin artırılması | NMR ETSN | YİH | 2027 |
| 103. | 8.11.3.2.1. | Elektrik mühərrikli nəqliyyat vasitələri üçün elektrik enerjisi doldurma məntəqələrinin qurulması | NMR RİNN | NMR DŞAK, YİH | 2026 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 104. | 8.11.3.2.3. | Naxçıvan şəhərində tramvay xəttinin çəkilməsi | NŞİH | NMR RİNN, NMR DŞAK | 2026 |
| 105. | 8.11.3.3. | Ekoloji vəziyyətin yaxşılaşdırılması | NMR ETSN | YİH | 2027 |
| 106. | 8.11.4.2.1. | Bioloji müxtəlifliyin qorunması məqsədilə əhalinin ekoloji maarifləndirilməsi və müvafiq tədbirlərin görülməsi | NMR ETSN | NMR KTN, YİH | 2025-2027 |
| 107. | 8.11.4.2.2. | Ətraf mühitin mühafizəsi sahəsində innovativ texnologiyaların tətbiqi, operativ müdaxilələr, müşahidə və ölçmələr üçün cihaz, qurğu və digər vasitələrin alınması | NMR ETSN | | 2025 |
| 108. | 8.11.5.3. | Əhalinin sudan qənaətlə istifadə ilə bağlı məlumatlılıq səviyyəsinin artırılması | YİH | | 2027 |
| 109. | 8.11.6.2.3. | Təhlükəli və tibbi tullantıların saxlanma və zərərsizləşdirmə mərkəzlərinin yaradılması istiqamətində işlərin davam etdirilməsi | NMR ETSN | NMR FHN, YİH | 2025 |
| 110. | 8.11.6.3.1. | Tullantıların təkrar emalı prosesinin əhatə dairəsinin genişləndirilməsi | NMR ETSN | YİH | 2027 |

## Akronimlər və ixtisarlar

| | | |
|---|---|---|
| NMR NK Aparatı | - | Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Aparatı |
| NMR AQUPDK | − | Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi |
| NMR ETSN | − | Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| NMR ƏN | − | Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi |
| NMR ƏƏSMN | − | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi |
| NMR DŞAK | − | Naxçıvan Muxtar Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi |
| NMR DQİDA | − | Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi |
| NMR FHN | − | Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi |
| NMR GİN | − | Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi |
| NMR İN | − | Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi |
| NMR KTN | − | Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi |
| NMR MN | − | Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi |
| NMR MdN | − | Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi |
| NMR RİNN | − | Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi |
| NMR TD | − | Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti |
| NMR TN | − | Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi |
| NMR QTA | − | Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyi |
| NAYDA | − | “Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi” publik hüquqi şəxsi |
| NMR İTSDA | − | “Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” publik hüquqi şəxsi |
| NMR TMİB | − | “Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi”publik hüquqi şəxsi |
| NTV QSC | - | Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti |
| NTM | − | “Naxçıvan Təlim Mərkəzi” publik hüquqi şəxsi |
| NŞİH | − | Naxçıvan Şəhər İcra Hakimiyyəti |
| CRİH | − | Culfa Rayon İcra Hakimiyyəti |
| ORİH | − | Ordubad Rayon İcra Hakimiyyəti |

| | | |
|---|---|---|
| ŞRİH | – | Şərur Rayon İcra Hakimiyyəti |
| YİH | – | Yerli icra hakimiyyəti orqanları |